# Mündəricat


01 Avropada akademik heyət - 2025

02 Aşağı və orta gəlirli ölkələrin təhsil sistemlərində süni intellektin transformativ potensialının araşdırılması

03 Səmərəli məktəbəqədər təhsil: xoşbəxtlik və rifahın sirri

04 Yeni iqtisadiyyat dövründə bacarıqlar: insan faktorunun gücləndirilməsi

# Avropada akademik heyət - 2025

01

Avropa Komissiyası tərəfindən "Avropada akademik heyət - 2025" adlı hesabat dərc edilmişdir. Eurydice şəbəkəsinin məlumatlarına əsasən, akademik heyət Avropa ali təhsil sistemlərinin əsas sütunlarından biri hesab olunur və onların peşəkarlıq səviyyəsi həm ali təhsil müəssisələrinin inkişafı, həm də transsərhəd əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin sürətlə dəyişən ali təhsil mühiti bu sahədə çalışanların qarşısına yeni və mürəkkəb çağırışlar çıxarır. Hesabatda qeyd olunur ki, qloballaşma və ali təhsilin kütləviləşməsi fonunda təhsil sistemləri səmərəlilik, keyfiyyət və şəffaflıq tələblərinə uyğunlaşmağa məcbur qalır. Xüsusilə Bolonya prosesi ali təhsil üzrə dərəcələrin uyğunlaşdırılmasını və Keyfiyyət Təminatı üzrə Avropa Standartlarının tətbiqini təmin etməklə beynəlxalq əməkdaşlığın və akademik mobilliyin genişləndirilməsinə zəmin yaratmışdır. Hesabatda Avropa İttifaqına 27 üzv ölkə ilə yanaşı, Albaniya, Bosniya və Herseqovina, İslandiya, Lixtenşteyn, Monteneqro, Norveç, Serbiya və Türkiyəni əhatə edən ümumilikdə 38 ali təhsil sisteminə dair məlumatlar təhlil edilir.

Avropa ölkələrinin ali təhsil sistemləri tarixi, mədəni və inzibati xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Hesabatda bu müxtəliflik dörd əsas struktur amil əsasında izah edilir: ölkələrin unitar və ya federal idarəetmə modelinə malik olması; ali təhsil müəssisələrinin tipoloji müxtəlifliyi; institusional muxtariyyətin səviyyəsi; akademik azadlığın hüquqi və praktik təminat mexanizmləri. Qeyd olunan struktur fərqlər müxtəlif akademik karyera modellərinin formalaşmasına səbəb olur. Belə ki, bəzi ölkələrdə akademik heyət birbaşa ali təhsil müəssisələri tərəfindən işə qəbul edildiyi halda, digər ölkələrdə bu funksiya dövlət orqanları tərəfindən həyata keçirilir və ya qarışıq işə qəbul modelləri tətbiq olunur.

Hesabatda qeyd olunur ki, bir sıra ölkələrdə akademik heyət dövlət qulluqçusu statusuna malikdir. Lakin bu yanaşmanın son illərdə tədricən zəiflədiyi müşahidə olunur. Məsələn, Fransada 2007-ci ildən etibarən ali təhsil müəssisələrinə insan resursları ilə bağlı daha geniş səlahiyyətlər verilsə də əmək haqlarının təyin edilməsi və vəzifə yüksəlişi kimi əsas qərarlar hələ də dövlət tərəfindən idarə olunur. Lüksemburqda isə professorların maaşlarının hələ də dövlət tərəfindən ödənilməsinə baxmayaraq, dövlət qulluqçusu statusu tədricən ləğv edilməkdədir.
Əksər ölkələrdə akademik heyətin əhəmiyyətli hissəsi müddətsiz müqavilələrlə çalışır. Lakin bəzi ölkələrdə, məsələn Slovakiyada akademik heyətlə müddətsiz müqavilə bağlanmadan öncə fasilələrlə müddətli müqavilələrin imzalanması tələb olunur. Hazırda ölkədə beş illik müddətli müqavilələr geniş tətbiq edilir. Hesabatın təhlili göstərir ki, bəzi ölkələrdə daimi müqavilə ilə işləyənlərin payı 70-80%-ə çatır, lakin bu göstərici ölkədən ölkəyə fərqlənir.

Hesabatda qeyd edilir ki, 38 ali təhsil sistemindən təqribən 25-də akademik heyətlə bağlı ən azı bir dövlət strategiyası qüvvədədir. Bu sənədlərin bir çoxu ali təhsil sisteminin inkişafına yönəlmişdir (məsələn, Avstriya, Sloveniya, Çexiya), 11 ölkədə isə diqqət əsasən elmi-tədqiqat və innovasiya sahələrinə yönəlib (Fransa, İtaliya, İsveçrə və s.). Məsələn, Avstriya strategiyası iş şəraitinin yaxşılaşdırılması, müəllim-şagird nisbətinin optimallaşdırılması, həmçinin akademik heyətin beynəlxalq mobilliyinin gücləndirilməsi vasitəsilə ali təhsilin daha cəlbedici hala gətirilməsini hədəfləyir. Sloveniya strategiyasında akademik heyətin iş şəraitinin keyfiyyəti ali təhsildə ümumi keyfiyyət göstəricilərinin ayrılmaz tərkib hissəsi kimi qiymətləndirilir. Türkiyə strategiyasında isə akademik heyət universitetlərin beynəlxalq reytinqinin yüksəldilməsi üçün əsas amil kimi qəbul edilir. Çexiyada isə strategiyaların prioritetləri idarəetmənin təkmilləşdirilməsi, elmi-tədqiqat potensialının artırılması və akademik heyətin iş yükünün azaldılmasıdır. Eyni zamanda bir sıra ölkələrdə (məsələn, Albaniya, Belçikanın Alman icması, Polşa və s.) ümumi təhsil və sosial siyasət strategiyaları hazırlanmışdır ki, bu planların da ali təhsil və akademik heyətə təsiri olmuşdur. Ali təhsil strategiyalarında ən çox vurğulanan əsas məsələlərə kadrların cəlb edilməsi, gender bərabərliyinin təmin olunması, inklüzivliyin gücləndirilməsi, beynəlxalq mobilliyin təşviqi, davamlı peşəkar inkişaf və əmək müqavilələrinin təkmilləşdirilməsi daxildir.



Beynəlxalq Təhsil İcmalı
Dekabr 2025

Hesabatda qeyd olunur ki, son beş ildə Avropa təhsil sistemində akademik heyətlə bağlı islahatlar aparılmışdır. Bu islahatlar əsasən iş şəraitinin yaxşılaşdırılmasına, müqavilə sabitliyinin artırılmasına və institusional muxtariyyətin genişləndirilməsinə yönəlmişdir. Məsələn, Macarıstanda 2021-ci ildə dövlət universitetlərinin hüquqi statusu xeyriyyəçilik fondları formasına keçirilmiş, işə qəbul səlahiyyətləri ali təhsil müəssisələrinə həvalə edilmiş, yeni əmək müqavilələri tətbiq olunmuş və tədqiqatçıların cəlb edilməsi istiqamətində innovativ strategiyalar hazırlanmışdır. Polşada akademik heyətin yalnız rəsmi əmək müqaviləsi əsasında fəaliyyət göstərməsi hüquqi norma kimi təsbit edilmiş və daimi akademik karyera üçün yeni qaydalar müəyyən olunmuşdur. Bundan əlavə, Çexiya, Slovakiya və Yunanıstanda akademik heyətin işə qəbulu və karyera idarəçiliyi ali təhsil müəssisələrinin səlahiyyətinə verilmişdir.

**Mənbə:** *European Commission: European Education and Culture Executive Agency, Academic staff in Europe 2025 – Eurydice report, Publications Office of the European Union, 2025, https://data.europa.eu/doi/10.2797/4097557*

# Aşağı və orta gəlirli ölkələrin təhsil sistemlərində süni intellektin transformativ potensialının araşdırılması

02

Dünya Bankı tərəfindən "Aşağı və orta gəlirli ölkələrin təhsil sistemləri üçün süni intellektin transformativ potensialının araşdırılması" adlı pilot tədqiqatın ilkin mərhələsinə dair hesabat hazırlanmışdır. Hindistan və Nigeriyada həyata keçirilmiş bu pilot tədqiqatın əsas məqsədi təhsil prosesində süni intellektdən istifadənin mövcud vəziyyətini, onların yaratdığı imkan və məhdudiyyətləri, eləcə də inkişaf etməkdə olan ölkələr üçün müvafiq siyasi tövsiyələrini sistematik şəkildə təhlil və təqdim etməkdir. Bu çərçivədə müəllimlər, şagirdlər və təhsil sektorunda əlaqədar tərəflər olmaqla, ümumilikdə təqribən 150 respondent tədqiqata cəlb edilmişdir.

Hindistanda generativ süni intellekt (GenSİ) əsasında hazırlanmış dərs planlarının tətbiqi qısa müddət ərzində şagirdlərin karyera məlumatlılığında əhəmiyyətli müsbət dəyişikliklər yaratmışdır. Qanadakı 1035 şagirdi əhatə edən pilot tədqiqatda süni intellekt əsaslı tyutor sistemi riyaziyyat fənni üzrə nəticələrin yaxşılaşmasına səbəb olmuşdur. Bu təsir xüsusilə zəif nəticə göstərən uşaqlar şagirdlər arasında daha aydın müşahidə olmuşdur. Braziliyada 178 məktəbdə tətbiq edilən süni intellekt dəstəkli yazı qiymətləndirmə sistemi şagirdlərin yazı bacarıqlarında 32% artıma səbəb olmuşdur. Nigeriyanın Edo GenSİ-nin altı həftəlik tətbiqi nəticəsində əhəmiyyətli irəliləyiş qeydə alınmışdır.
Bununla yanaşı, GenSİ-nin artıq geniş yayılma mərhələsinə daxil olmasının diqqətəlayiq olduğu vurğulanır. Belə ki, GenSİ platformalarına yönələn qlobal trafikin 50%-dən çoxunun orta gəlirli ölkələrin payına düşməsi bu texnologiyanın həmin regionlarda əsasən qeyri-rəsmi, sürətli və genişmiqyaslı şəkildə yayıldığını göstərir.

Hesabat qlobal təhsil böhranının aşağı və orta gəlirli ölkələrdə daha kəskin xarakter aldığını vurğulayır. Xüsusilə, təhsil böhranının 70%-ə çatması və müəllim çatışmazlığı probleminin davam etməsi bu kontekstdə süni intellekt əsaslı yanaşmalara olan ehtiyacı daha da artırır.

Hesabatda süni intellekt alətlərinin təhsildə istifadəsi üç əsas kateqoriya üzrə təsnif edilir:
1.Şagirdyönümlü fərdiləşdirilmiş öyrənmə
2.Müəllimyönümlü tədris dəstəyi
3. İdarəetmə və sistem səviyyəli dəstək.

Şagirdyönümlü metodlara, əsasən adaptiv öyrənmə sistemləri, regional dillərdə təqdim olunan məzmunlar və imtahanlara hazırlıq platformaları daxildir. Məsələn, Hindistanda "ConveGenius", "Doubtnut" və "The Apprentice Project" adlı platformalar votsap əsaslı mikroöyrənmə, regional dil məzmunu, test hazırlığı və adaptiv təlim imkanları təqdim edən nümunələr kimi göstərilir. Nigeriyada isə eyni məqsədlərlə "uLesson" və "SimbiBot" adlı alətlərdən istifadə olunur. Şagirdlərin birbaşa istifadəsi üçün nəzərdə tutulmuş alətlər çərçivəsində GenSİ platformaları vasitəsilə məqalə yazılması, proqramlaşdırma bacarıqlarının inkişaf etdirilməsi və imtahanlara hazırlıq məqsədilə yeni tədris resurslarına çıxış imkanları genişlənmişdir. Bu baxımdan Hindistanda EkStep Foundation tərəfindən hazırlanmış 40–50 MB həcmində çoxdilli məzmun modelləri, eləcə də Gujarat əyalətində tətbiq edilən Wadhwani süni intellekt əsaslı oxu səlisliyi aləti diqqətəlayiq nümunələr kimi göstərilir. Nigeriyada isə Vinsight kimi inküliziv əsaslı alətlər xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün mühüm tətbiq nümunələri kimi təqdim olunur.

Müəllimlər üçün nəzərdə tutulmuş süni intellekt əsaslı alətlər sırasında SmartPaper platformasının qiymətləndirmə və rəqəmsallaşdırma funksiyaları, Khanmigo-nun müəllim dəstəyi modulları, Schoola tərəfindən təqdim olunan CurriAI platforması, eləcə də ConveGenius-un statistik təhlil imkanları qeyd olunur. Bu alətlər dərs planlaşdırılması, sual generatorlarının yaradılması, avtomatlaşdırılmış qiymətləndirmə və pedaqoji tövsiyələrin təqdim edilməsi vasitəsilə müəllimlərin iş yükünü əhəmiyyətli dərəcədə azaltmağa imkan verir.



Hesabatda, həmçinin idarəetmə yönümlü süni intellekt alətlərinin təhsil sistemlərində inzibati funksiyaların səmərəliliyini artırdığı vurğulanır. Hindistanın Telangana və Gujarat kimi ştatlarında süni intellekt strategiyalarının təhsil idarəetmə strukturuna rəsmi şəkildə inteqrasiya olunması, təlimin idarəetmə sistemləri (LMS) vasitəsilə real vaxt rejimində göstəricilərin təhlilinin aparılması, eləcə də dövlət-özəl tərəfdaşlıqlarının formalaşdırılması bu sahədə uğurlu nümunələr kimi göstərilir. Nigeriyada isə təhsil idarəetmə sistemlərinin süni intellekt funksiyaları ilə genişləndirilməsinin ölkənin rəqəmsal təhsil strategiyasının icrasını sürətləndirdiyi qeyd olunur.
Hesabatda bir sıra problemlərin mövcudluğundan bəhs olunur. Əsas çətinliklər sırasında dil modelləri üçün resurs çatışmazlığı, latın qrafikasından fərqli qrafikalı dillərin süni intellekt modellərində daha yüksək token (söz və ya simvol vahidi) xərci yaratması, kompüter və enerji infrastrukturunun zəifliyi, eləcə də internetə çıxışın məhdudluğu vurğulanır. Bu baxımdan hesabatda süni intellekt alətlərinin tətbiqinə başlanmazdan əvvəl qeyd olunan amillərin nəzərə alınması tövsiyə edilir.

1.Problemin dəqiq müəyyənləşdirilməsi;
2.İnfrastrukturun gücləndirilməsi;
3.Yerli dillərdə tədris resurslarının inkişaf etdirilməsi;
4.Çevik satınalma mexanizmlərinin yaradılması;
5.Məlumatların idarə olunması üzrə sistemin yaradılması;
6.Müəllim hazırlığının prioritetləşdirilməsi;
7.Tədris proqramlarına süni intellekt modullarının inteqrasiyası;
8.Kiçik və resurs baxımından səmərəli dil modellərinin təşviq olunması

**Mənbə:** *World Bank. (2025). Exploring AI's Disruptive Promise for Education Systems in Low- and Middle-Income Countries (Digital Progress and Trends Report 2025, Case Study 1). Washington, DC: World Bank.*

# Səmərəli məktəbəqədər təhsil: xoşbəxtlik və rifahın sirri

03

OECD tərəfindən "Səmərəli məktəbəqədər təhsil: xoşbəxtlik və rifahın sirri" adlı hesabat hazırlanmışdır. Hesabat məktəbəqədər təhsilin cəmiyyətin gələcək xoşbəxtliyi üçün əhəmiyyətini vurğulayır. Qlobal müqayisəli məlumatlara əsaslanan sənəd göstərir ki, keyfiyyətli məktəbəqədər təhsilin təmin edilməsi ilə daha ədalətli və dayanıqlı bir cəmiyyət qurmaq mümkündür.

Bildirilir ki, erkən yaşda əldə olunan bacarıqlar uşağın gələcək məktəb nailiyyətlərini və həyat keyfiyyətini əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Səmərəli məktəbəqədər təhsilə investisiya edən ölkələrdə ümumi təhsil nəticələri yüksəlir və sosial bərabərsizlik azalır. Buna baxmayaraq, hökumətlərin bu sahəyə yatırımı hələ də məhduddur. Beləliklə, 2022-ci ildə OECD ölkələrində məktəbəqədər təhsilə ayrılan dövlət xərcləri orta hesabla ölkələrin ümumi iqtisadi dəyərinin cəmi 0,8%-ni təşkil etmiş, yalnız bəzi ölkələrdə bu göstərici 1,5–2% intervalında dəyişmişdir. Eyni zamanda məktəbəqədər təhsilin əhatə dairəsi hələ də tam təmin olunmamışdır.

2022-ci il üzrə məlumatlara əsasən əksər OECD ölkələrində 5 yaşlı uşaqların demək olar ki, hamısı məktəbəqədər təhsilə cəlb olunsa da 0–2 yaş qrupunda iştirak səviyyəsi qənaətbəxş hesab edilmir. ABŞ-da aparılmış tədqiqatların ümumi təhlili göstərir ki, məktəbəqədər təhsilə cəlb olunan uşaqlarda sinifdə qalma ehtimalı və əlavə dəstəyə ehtiyacı əhəmiyyətli dərəcədə azalır, eyni zamanda onların orta təhsili başa çatdırma göstəriciləri yüksəlir. Qeyd olunan müsbət təsirlər uşaqların sosial-iqtisadi mənşəyindən asılı olmayaraq müşahidə edilmişdir.

Hesabatda erkən yaşlarda əldə olunan bacarıqların təkcə məktəb nailiyyətlərinə deyil, eyni zamanda yetkinlik dövründə məşğulluq imkanlarına, sağlamlıq göstəricilərinə və ümumi həyat keyfiyyətinə də mühüm təsir göstərdiyi vurğulanır. OECD araşdırmalarına əsasən 5 yaşında aparılan test nəticələri uşaqların gələcək göstəricilərini, o cümlədən, əmək bazarında uğurlarını daha dəqiq müəyyənləşdirir. Məktəbəqədər yaşda uşaqlarda formalaşan bacarıqlar, özünü tənzimləmə və emosional dayanıqlı davranışlar kimi xüsusiyyətlər daha sonrakı mərhələdə məktəb nailiyyətləri ilə birbaşa əlaqəlidir. İELS məlumatlarına əsasən, aztəminatlı ailələrin uşaqları həm idrak, həm də sosial-emosional göstəricilər baxımından daha zəif nəticələr göstərir. Bu isə erkən dövrdə keyfiyyətli təhsilin təmin olunmasının vacibliyini ortaya qoyur.

OECD araşdırmaları göstərir ki, sosial-iqtisadi fərqlər erkən yaş mərhələlərində artıq aydın şəkildə formalaşır və sonrakı nəticələri etibarlı şəkildə müəyyənləşdirəcək səviyyəyə çatır. Beləliklə, 5 yaşlı uşaqlar arasında sosial davranış və məktəbəqədər bacarıqlar baxımından yüksək gəlirli və aztəminatlı ailələrdən olan uşaqlar arasında orta hesabla 12 aylıq inkişaf fərqi müşahidə edilir. Bəzi ölkələrdə bu fərq daha da kəskin xarakter alır. Məsələn, Danimarka, İsveç və Niderlandda sosial-iqtisadi mənşədən irəli gələn fərqlər minimal səviyyədə müşahidə olunduğu halda, Macarıstan, İtaliya və Yunanıstanda aztəminatlı və yüksək gəlirli ailələrdən olan uşaqlar arasında məktəbəqədər təhsildə iştirak səviyyəsi üzrə fərq 50%-dən artıq olmuşdur.

Hesabatda vurğulanır ki, məktəbəqədər təhsildə davamlı inkişafın təmin edilməsi və keyfiyyətin qorunması bu sahədə çalışan pedaqoqların hazırlıq səviyyəsi və əmək şəraiti ilə sıx şəkildə əlaqəlidir. Hazırda aşağı əməkhaqqı, məhdud karyera imkanları və peşənin nisbətən aşağı nüfuzu səbəbindən sektorda ciddi kadr çatışmazlığı müşahidə olunur. OECD tərəfindən aparılmış TALIS "Starting Strong" sorğusunun nəticələrinə əsasən, müəllimlərin yalnız 20%-i həssas qruplara mənsub uşaqlarla işləməyə hazır olduqlarını bildirir. Bu göstərici Yaponiya və Koreya kimi ölkələrdə daha aşağı, Danimarka və Norveçdə isə nisbətən yüksəkdir. Əmək şəraitinin yaxşılaşdırılması, ixtisasartırma imkanlarının genişləndirilməsi və liderlik imkanlarının yaradılması müəllimlərin sektorda qalmasını və peşəkar inkişafını stimullaşdıran əsas amillər kimi qiymətləndirilir.



Beynəlxalq Təhsil İcmalı
Dekabr 2025

Hesabatda həmçinin vurğulanır ki, valideynlərin ev mühitində övladlarının inkişafını dəstəkləməyə yönəlmiş fəaliyyəti uşaqların məktəbə hazırlıq səviyyəsinin formalaşmasında mühüm rol oynayır. OECD sorğularına əsasən, valideynlərin gündəlik oxu, ünsiyyət və müxtəlif inkişafetdirici fəaliyyətlərə cəlb olunduğu uşaqlar daha yüksək inkişaf və hazırlıq göstəriciləri nümayiş etdirirlər. Bununla belə, sosial-iqtisadi bərabərsizlik bu sahədə də özünü büruzə verir: Skandinaviya ölkələrində qeyd olunan fəaliyyətlər geniş yayılmış olduğu halda, Türkiyə və Bolqarıstan kimi ölkələrdə valideynlərin iştirak səviyyəsi əhəmiyyətli dərəcədə aşağıdır. Bu kontekstdə, məktəbəqədər təhsil müəssisələrinin valideynlərlə sistemli əməkdaşlıq qurması, onlara müvafiq dəstək və resurslar təqdim etməsi mühüm siyasət tövsiyəsi kimi irəli sürülür.

Eyni zamanda, hesabatda qeyd olunur ki, artan miqrasiya nəticəsində çoxdillilik və mədəni müxtəliflik məktəbəqədər təhsil sistemlərinə yeni çağırışlar gətirir. OECD məlumatlarına əsasən, 2007–2025-ci illər arasında Avstriya, Kanada, İspaniya və Yeni Zelandiya da daxil olmaqla 14 ölkədə çoxdilli uşaqların sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu reallıq, müəllimlərin çoxmədəniyyətli və çoxdilli mühitlərdə fəaliyyət göstərmək üçün xüsusi təlimlərə ehtiyacını daha da artırır. Hesabatda, sistemli monitorinqin həyata keçirilməsi, inklüziv tədris materiallarının hazırlanması və valideynlərlə dil sahəsində əməkdaşlığın gücləndirilməsi tövsiyə olunur.

Hesabatda oyun uşaqların inkişafında mühüm rol oynayan təbii öyrənmə vasitəsi kimi vurğulanır. Göstərilir ki, uşaqların təhsil müəssisələrində ən çox sevdikləri fəaliyyət növü məhz oyundur. OECD sorğularına əsasən, 5 yaşlı uşaqların 40%-i baxçada ən sevdikləri məşğuliyyətin oyun olduğunu bildirib. Oyun uşaqlarda sosial qarşılıqlı əlaqə, dil bacarıqları, yaradıcılıq və fiziki inkişaf üçün mühüm platforma rolunu oynayır. Bununla belə, ekran qarşısında keçirdikləri vaxtın artması və digər sosial faktorlar oyun müddətini azalda bilər. Hesabatda vurğulanır ki, kurikulumlar oyun əsaslı öyrənməyə təşviq etməli, eyni zamanda yaşa uyğun bacarıqların və öyrədici fəaliyyətlərin formalaşdırılmasını nəzərə almalı və bu yanaşmalar arasında balanslı inteqrasiya təmin edilməlidir.

Hesabatda məktəbəqədər təhsil sahəsində bərabərsizliyin aradan qaldırılması üçün iki əsas istiqamət təklif olunur:
1.Universal siyasətlər – bütün uşaqları əhatə edən ümumi tədris proqramları;
2.Hədəflənmiş siyasətlər – xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara mənsub uşaqlar üçün əlavə dəstək mexanizmləri.
Bundan əlavə, aşağı gəlirli ailələr üçün maliyyə dəstəyinin təmin edilməsi, xüsusi ehtiyacı olan uşaqlara yönəlik ixtisaslaşmış kadrların dəstəklənməsi və valideynlər üçün maarifləndirici proqramların həyata keçirilməsi tövsiyə edilir.
Həmçinin, səhiyyə, təhsil və sosial xidmətlər arasında sektoral əməkdaşlığın gücləndirilməsi, inteqrasiyanın təmin olunması və resursların koordinasiyalı istifadəsi əsas prioritet istiqamətlər kimi qeyd olunur.

**Mənbə:** *OECD (2025), Quality Early Childhood Education: The Key to Prosperity and Well-Being, International Summit on the Teaching Profession, OECD Publishing, Paris, https://doi.org/10.1787/cd5ca149-en.*

# Yeni iqtisadiyyat dövründə bacarıqlar: insan faktorunun gücləndirilməsi

Dünya İqtisadi Forumu cari ayda hazırladığı “Yeni iqtisadiyyat dövründə bacarıqlar: insan faktorunun gücləndirilməsi” adlı hesabat qlobal əmək bazarında bacarıqların transformasiyasını insan faktorlu yanaşma prizmasından təhlil edir. Hesabat təhsil, əmək bazarı və texnologiya sahələrində fəaliyyət göstərən aparıcı institutların məlumatları, eləcə də genişmiqyaslı ekspert məsləhətləşmələri əsasında formalaşdırılmışdır. Sənəddə yeni iqtisadi reallıqlar şəraitində rəqabət qabiliyyətliliyinin əsas amili kimi insan potensialının məqsədyönlü inkişafı ön plana çəkilir.

Hesabatın əsas mahiyyəti ondan ibarətdir ki, süni intellekt və avtomatlaşdırma texnologiyalarının sürətlə yayılmasına baxmayaraq, gələcəyin əmək bazarında ən yüksək dəyərə malik bacarıqlar texniki deyil, məhz insan faktorlu bacarıqlardır. Bu bacarıqlara “yaradıcılıq və problem həlli”, “analitik və sistemli düşünmə”, “emosional zəka”, “əməkdaşlıq”, “liderlik”, “adaptasiya qabiliyyəti” və “ömürboyu öyrənmə” kimi kompetensiyalar daxildir. Sənəd işəgötürənlərin təxminən 40%-nin növbəti 5 il ərzində əsas bacarıq tələblərində əhəmiyyətli dəyişikliklər olacağını proqnozlaşdırır. Eyni zamanda, 2030-cu ilədək qlobal miqyasda 170 milyon yeni iş yerinin yaranacağı, 92 milyon iş yerinin isə sıradan çıxacağı gözlənilir. Hesabatda insan faktorlu bacarıqlara olan tələbat bu bacarıqların mövcudluğu qlobal və regional səviyyələrdə təhlil edilir. Qlobal miqyasda qərarverici şəxslərin təxminən 60%-i təhsil sistemlərinin əməkdaşlıq bacarıqlarını nisbətən səmərəli şəkildə inkişaf etdirdiyini hesab etsə də yaradıcılıq və çeviklik kimi göstəricilər üzrə nəticələrin daha zəif olduğu qeyd olunur. Regional müqayisələr göstərir ki, Şərqi Asiya və Karib hövzəsi ölkələri insan faktorlu bacarıqlara hazırlıq səviyyəsi baxımından daha müsbət mövqe nümayiş etdirir. Bunun əksinə olaraq Şimali Amerikada bu baxımdan nisbi geriləmə müşahidə olunur.
Sənəddə OECD və PISA 2022 nəticələrinə istinad edilməklə təhsil sistemlərində mövcud olan ciddi struktur boşluqlara diqqət çəkilir. OECD-nin sosial və emosional bacarıqlar üzrə sorğusuna əsasən, 15 yaşlı şagirdlərə dərs deyən müəllimlərin təxminən 30%-i sosial və emosional bacarıqların inkişafı ilə bağlı heç bir ixtisasartırma və ya təlim proqramında iştirak etməmişdir. PISA 2022-nin yaradıcı düşüncə üzrə qiymətləndirmə nəticələri isə göstərir ki, OECD ölkələrində şagirdlərin təxminən yarısı maraqlı ideyalar irəli sürə bilir.

Hesabat insan faktorlu bacarıqların inkişafı, qiymətləndirilməsi və tanınması üçün qlobal prinsiplər sistemini təqdim edir. Bu çərçivə insan bacarıqlarının ölçülməsi və göstərilməsinin qarşısındakı çətinlikləri aradan qaldırmağı məqsəd qoyur və həmin bacarıqların yalnız real fəaliyyətlər əsasında etibarlı şəkildə qiymətləndirilə biləcəyini vurğulayır. Qiymətləndirmədə performansa əsaslanan tapşırıqlar, simulyasiyalar və portfel metodları ön plana çıxarılır. Bacarıqların inkişafı isə təhlükəsiz, inklüziv və rəyə əsaslanan mühitlərdə məqsədli praktika vasitəsilə təmin edilir.
Hesabatda insan faktorlu bacarıqların rəsmi tanınması və geniş şəkildə qəbul olunması üçün sertifikatlaşdırmanın əsas vasitə kimi təqdim olunduğu vurğulanır. Sənəddə qeyd edilir ki, ənənəvi diplomlar bu bacarıqları tam şəkildə əks etdirmədiyindən, real fəaliyyətə əsaslanan ixtisas sənədləri, rəqəmsal təsdiq nişanları və fərdi bacarıq portfelləri üstün tutulur. Bu sənədlər bacarıqların hansı meyarlarda qiymətləndirildiyini və onların praktik fəaliyyət zamanı necə tətbiq olunduğunu aydın şəkildə göstərməli, şəffaf və etibarlı yoxlama mexanizmləri vasitəsilə müxtəlif ölkələrdə və fəaliyyət sahələrində tanınmalıdır.

Əmək bazarına dair empirik məlumatlar insan faktorlu bacarıqların paradoksal mövqeyini üzə çıxarır. Avstraliya Statistika Bürosunun məlumatlarına əsasən, iş elanlarının yalnız 72%-də insan faktorlu bacarıqlardan ən azı biri açıq şəkildə qeyd olunub, halbuki “yaradıcılıq” və “ömürboyu öyrənmə” bacarıqları cəmi 2% hallarda vurğulanır. Bununla yanaşı, Workhuman platformasının məlumatları göstərir ki, “yaradıcı düşüncə və dözümlülük” nadir hallarda formal şəkildə tanınsa da real iş mühitində ən yüksək dəyərə malik bacarıqlardan biridir. Bu ziddiyyət bacarıqların ölçülməsi, tanınması və qiymətləndirilməsi mexanizmlərinin kifayət qədər inkişaf etmədiyini göstərir.

Hesabatın mühüm töhfələrindən biri insan faktorlu bacarıqların avtomatlaşdırmaya qarşı davamlılığının empirik əsaslarla sübut edilməsidir. Indeed Hiring Lab tərəfindən aparılmış təhlilə əsasən, empatiya, liderlik və yaradıcılıqla əlaqəli tapşırıqların yalnız 13%-i süni intellekt tərəfindən əvəzlənmə potensialına malikdir. Həmçinin sənəddə qeyd olunur ki, bu bacarıqlar uzunmüddətli perspektivdə “davamlı” hesab edilsə də, böhran dövrlərində sürətlə zəifləyə bilər.
Bununla yanaşı, hesabatda hökumətlərin, təhsil müəssisələrinin və işəgötürənlərin fərdi və sosial bacarıqların inkişafı, qiymətləndirilməsi və sertifikatlaşdırılması üzrə vahid və əlaqələndirilmiş prinsiplərin formalaşdırılmasına cəlb olunmasının vacibliyi vurğulanır. Təklif olunan çərçivə real fəaliyyətə əsaslanan qiymətləndirmə mexanizmlərini, təhlükəsiz və inklüziv öyrənmə mühitlərinin yaradılmasını, eləcə də daşına bilən və etibarlı mikro-kvalifikasiyaların tətbiqini əsas prioritetlər kimi müəyyən edir.

**Mənbə:** *World Economic Forum. (2025). New economy skills: Unlocking the human advantage.*

